


# Cefri Ouens: «AZƏRBAYCAN HEYRANEDİCİ NAİLİYYƏTLƏR ƏLDƏ EDİB»

***Bu günlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi siyasəti və vergi administrasiyası üzrə direktoru cənab Cefri Ouensin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Qonaqlar ölkəmizin vergi sistemi ilə yaxından tanış olmuş, təcrübə mübadiləsi aparmışlar. C.Ouens səfərinin yekunları ilə bağlı AzərTAc-a müsahibə vermişdir:***

1. ***Əvvəlcə, ölkəmizə səfərinizin məqsədi və ilk təəssüratlarınız barədə məlumat verməyinizi xahiş edirik.***

Həmkarımla birgə Azərbaycana səfərimizin əsas məqsədi ölkənizlə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı arasında vergi sahəsində əməkdaşlığı möhkəmləndirməkdir. Əməkdaşlığımız artıq yüksək səviyyədədir, lakin onu daha da təkmilləşdirə bilərik.
Düzünü desəm, ölkəniz mənim üçün maraq kəsb edirdi. Azərbaycan və onun paytaxtı haqqında çox eşitsəm də, burada olmamışdım. Son 48 saat ərzində gördüklərim bu ölkənin nəhəng potensiala malik olduğunu təsdiqləyir.

2. ***Artıq Azərbaycanın vergi sistemində həyata keçirilən islahatlar barədə müəyyən qədər məlumatlısınız. Bu islahatları necə xarakterizə edərdiniz?***

Qısa müddət ərzində belə böyük nailiyyətlər əldə etmək heyranedicidir. Müstəqillik əldə etməyinizdən cəmi 20 il keçib və apardığınız vergi islahatlarından sonra bu gün sizin rəqabət qabiliyyətli vergi sisteminiz var, vergi inzibatçılığınız olduqca səmərəlidir. Ən əsası odur ki, yerli vergi

ödəyiciləriniz bunları dərk edir, xarici vergi ödəyiciləri isə Azərbaycana gəldikdə ədalətli vergi sistemi ilə qarşılaşacaqlarını bilirlər.

Buna görə də, düşünürəm ki, son 10 il ərzində böyük nailiyyətlər əldə etmisiniz, hökumətiniz iqtisadi inkişafa təkan vermək məqsədilə vergi sistemindən xarici investisiyaların təşviqi, iqitsadiyyatın müxtəlif sahələrinin dinamik inkişafı üçün məqsədyönlü istifadə edib.

Lakin ən vacib məsələ ondan ibarətdir ki, siz verginin dövlət quruculuğunun bir hissəsi olduğunu hələ keçid dövrünün əvvəlində düzgün dəyərləndirmisiniz. Məlumdur ki, işlək vergi sistemi olmadan bazar iqtisadiyyatı prinsipləri ilə düzgün işləyən dövlət qurmaq mümkün deyil. Məhz bu məqamlara lazımi diqqqət yetirildiyindən aparılan bütün islahatlar xeyli sürətlənmişdir. Sizin uğurlarınız verginin ÜDM-də xüsusi çəkisində və ardıcıl olaraq son 5 il ərzində vergi daxilolmalarının artımında özünü göstərir. Mənə xüsusilə xoş təsir bağışlayan Azərbaycanın vergi inzibatçılığı oldu. Bir çox keçid iqtisadiyyatlı ölkələrə səfər etdikdə, nəzarət funskiyalarına üstünlük verildiyinin şahidi olmuşam. Buna görə də, ölkənizdə vergi ödəyicilərinə xidmətə etdiyiniz vurğu məndə xoş təəssürat yaratdı. Hesab edirəm ki, yanaşmanız düzgündür, çünki əməletmə səviyyəsinin yüksəldilməsi üçün güclü nəzarət funksiyaları ilə yanaşı vergi ödəyicilərinə xidmət də olmalıdır.

Bununla belə, mənə elə gəlir ki, növbəti illər ərzində sizin qarşınızda vergi daxilolmalarında artımı qoruyub saxlamaq, vergi sisteminizin rəqabət qabiliyyətliliyini yüksəltmək, vergidənyayınmanın qarşısını almaq kimi çətin vəzifələr durur.

Məlum olduğu kimi, nə qədər ki vergi var, vergidən yayınmaq istəyənlər də olacaq. Lakin ƏDV depozit hesablarını təbdiq etməklə sizin ƏDV, mənfəət və gəlir vergilərində yayınma ilə mübarizədə böyük uğurlar əldə etdiyinizi də söyləyə bilərəm. Bu nailiyyətləri qoruyub saxlamaq olduqca vacibdir.

Digər vacib vəzifə Azərbaycanın beynəlxalq, eləcə də OECD-nin vergi sahəsində son 50 il ərzində hazırladığı standartlara uyğunlaşdırılmasıdır.

3. ***İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında ikitərəfli əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?***

Düşünürəm ki, qurduğumuz əməkdaşlığı daha da inkişaf etdirə bilərik. Artıq müəyyən özül olduğundan, təbii ki, sıfırdan başlamayacağıq və həmin özül əsasında əməkdaşlığımızı daha da intensivləşdirə biləcəyik. Azərbaycanı digər MDB ölkələrinə aparan körpü kimi görmək istərdik və arzu edərdik ki, ölkəniz vergi inzibatçılığında öz uğurlu təcrübəsini digər inkişaf edən dövlətlərlə bölüşməyə hazır olsun.

Həmçinin hesab edirəm ki, MDB regionunda Azərbaycanın vergi administrasiyası model kimi istifadə oluna bilər. Bu, həm vergi yoxlamalarına, həm də vergi ödəyicilərinə xidmətə aiddir. Bunların hamısına necə nail olmaq mümkündür? Azərbaycanla OECD arasında uzunmüddətli əməkdaşlığın əsası olacaq müqəvilə imzalanmasını istərdim. Biz 1-2 illik deyil, uzunmüddətli əməkdaşlıqda maraqlıyıq. Elə bir əməkdaşlıqda ki, bundan həm siz, həm də biz bəhrələnək.

4. ***Bu əməkdaşlığın inkişaf etdirilməsi üçün ilk növbədə hansı addımların atılmasını zəruzi hesab edirsiniz?***

Baxmayaraq ki, vergi sahəsində xeyli işlər görümüsünüz, sizin təcrübəniz hələ yalnız bir neçə ölkəyə məlumdur. Məhz buna görə mən sizin nazir müavinini İstanbulda keçiriləcək Vergi Admnistrasiyaları Forumunda səbrsizliklə gözləyəcəyəm. Həmin forumda 48 ölkənin vergi admnistrasiyalarından nazirlər, nazir müavinləri, komitə sədrləri, direktorlar iştirak edəcəklər. Azərbaycan foruma qatılmaqla qazandığı nailiyyətləri bütün dünyaya nümayiş etdirmək imkanı əldə edəcək. Həmçinin, siz daim çalışmalısınız ki, nəzarət funksiyaları və vergi

ödəyicilərinə xidmət arasında balansı qorumaq üçün vergi sahəsində beynəlxalq standartlara cavab verəsiniz.

**5. *Müsahibə üçün təşəkkür edirəm. Əlavə nələri söyləmək istərdiniz?***

Səfərimiz həm mənim, həm də həmkarım üçün çox gözəl keçdi. Paytaxtınızda gəzmək imkanımız oldu və gördük ki, Bakı çox gözəl şəhərdir. Məndə xoş təəssürat yaradan digər məsələ hökumət qurumları arasında olan sıx əlaqədir. Ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün hökumətin digər qollarının həyata keçirdiyi tədbirlərlə vergi orqanlarının işləri üst-üstə düşür. Bunu «bir pəncərə»nin tətbiqindən və Dünya Bankının hesabatlarında ölkənizin daim irəliləməsindən görmək olur.

Sonda qeyd edim ki, vergilərin sadəcə texniki məsələ olmadığını dərk etmək vacibdir, çünki vergilər vasitəsilə dövlət qurulur, vergilər vasitəsilə inkişafa nail olunur, vergilər vasitəsilə ədalətli cəmiyyət yaradılır.